https://doi.org/10.59849/3006-2403.2026.1.150

***Jasmin ABBASOVA***
***Nizami Gəncəvi Mərkəzi***
***E-mail: jasminabbasova11@gmail.com***
***Nuriyyə ƏLIYEVA***
***Nizami Gəncəvi Mərkəzi***
***E-mail: nuriyliyeva992@gmail.com***

# NİZAMİ GƏNCƏVİNİN GÖZÜ İLƏ İNSAN, VİCDAN VƏ ZAMAN

*Açar sözlər:* Nizami Gəncəvi, Sirlər xəzinəsi, aforizmlər, hekayət və məqalətlər, insan

## Giriş

Nizami Gəncəvi Şərq ədəbiyyatının böyük sənətkarlarından biridir. Onun əsərlərində insanın mənəvi aləmi, cəmiyyətlə münasibəti dərin əks etdirilir. Onun "Sirlər Xəzinəsi" poeması təkcə bədii əsər deyil, həm də insan həyatına dair düşüncələri özündə daşıyan əvəzolunmaz bir hikmət xəzinəsidir.

Poemada insan yalnız yaşayan bir varlıq kimi deyil, düşünən, yaradan, seçim edən, etdiyi doğru-yanlışa cavabdeh biri kimi verilmişdir. İnsanın vicdanı onun daxilində ona doğru yolu göstərən ən mühüm gücdür. Əgər vicdanın təmizdirsə, sən ona qulaq asıb həm özünə, həm də ətrafındakılara fayda verə bilərsən. İnsanın vicdanı onun sözündə deyil, əməlində özünü göstərməlidir.

Nizami Gəncəvi kəlamlarının birində deyir;

*İnsandan insana fərq var,*
*Bir dəmirdən həm nal, həm qılınc olar.*

Nizamiyə görə, insanlar eyni görünsə də, eyni yaradılışda olsa da, fərqli olur-yəni biri fayda verir, biri zərər. Eyni maddədən fərqli şey düzəldiyi kimi, insanlar da xasiyyətinə, vicdanına, əməlinə görə fərqli olur.

Nizami Gəncəvi zamanın keçiciliyini vurğulayaraq insanı hər anın dəyərini bilməyə çağırır. Kəlamlarının birində deyir;

*Şadam ki, dünya evi darısqaldı əzəldən,*
*Qəm gedər, şadlıq gələr-adi haldır əzəldən* [3, s. 237].

Zaman heç kəs üçün dayanmır, bu dünyada hər şeyi ala bilərsən, geyim, ev, ziynət əşyası, ürəyin istəyən nə varsa. Yalnız zamanı ala bilmərsən. Ona görə də həyatınızı elə yaşayın ki, doğru yoldan ayrılmayın.

Nizami Gəncəvi dünya ədəbiyyatında insan ruhunu, vicdanın gücünü və zamanın hikmətini ən dərin şəkildə təsvir edən böyük sənətkarlardan biridir. Onun əsərləri yalnız poetik gözəlliyi ilə deyil, həm də insanı düşündürən fəlsəfi fikirləri ilə seçilir. Nizami insanı kainatın ən dəyərli varlığı hesab edir, vicdanı insanın daxili hakimi kimi təqdim edir, zamanı isə həyatın ən böyük müəllimi adlandırır.

Şairin "Xəmsə"si əsrlər keçsə də, öz aktuallığını itirməmişdir. Çünki Nizaminin toxunduğu mövzular insanlığın dəyişməyən həqiqətləridir. Müasir dövrdə texnologiya inkişaf etsə də, insan yenə vicdan, ədalət, sevgi və zaman qarşısında eyni suallarla yaşayır. Bu baxımdan Nizaminin fikirləri bu gün də insanlara yol göstərən mənəvi xəzinədir.

Nizaminin yaradıcılığında insan ən uca məqamda dayanır. O, insanı yalnız adi bir varlıq kimi deyil, ağıl və mənəviyyat sahibi olan müqəddəs bir varlıq kimi təqdim edir. Şairə görə, insanın dəyəri onun var-dövlətində deyil, əxlaqında, mərhəmətində və elmindədir.

Ümumiyyətlə, insan başqalarına fayda verməyi bacarmalıdır. Çünki, yalnız özü üçün yaşayan insan kamil hesab edilə bilməz. Bu dünyada varlı da var, kasıb da, alim də ancaq insan olmaq mərhəmətli, vicdanlı olmaq bunlardan ən üstünüdür. Yaxşılıq bumeranq kimi bir şeydir, atırsan, dönür-dolaşır, yenə özünə qayıdır.

"Sirlər xəzinəsi" əsərində Nizami insanın mənəvi saflığını ən böyük sərvət sayır. O, göstərir ki, insanın zahiri görünüşü deyil, daxili aləmi vacibdir. Şairə görə, qəlbi təmiz olan insan ən gözəl insandır.

Nizami insanı daim elmə çağırırdı. O, hesab edirdi ki, elm insanı ucaldır və cəmiyyətə işıq verir. Elmsiz insan qaranlıqda qalan bir yolçuya bənzəyir. Bu səbəbdən şair gənclərin oxumasını, öyrənməsini və düşünməsini vacib sayırdı.

Nizami yaradıcılığında vicdan anlayışı xüsusi yer tutur. Şair vicdanı insanın içində yaşayan bir hakim kimi təqdim edir. İnsan hər kəsdən gizlənə bilər, lakin vicdanından gizlənə bilməz. Vicdan insanı yaxşılıq etməyə çağırır, pis əməllərdən çəkindirir.

Nizaminin fikirlərinə görə, "Vicdan insanın qəlbində sönməyən bir çıraqdır." Bu düşüncə onun bütün yaradıcılığında hiss olunur. Ümumiyyətlə vicdan insanın daxilində ədalət hissidir. İnsan səhv edəndə onu narahat edən, yaxşı iş görəndə isə rahatlıq verən məhz vicdandır. Vicdanı təmiz olan insan heç vaxt başqasına zülm etməz. İnsanı pis yoldan çəkindirən daxili səsidir; o səs səni ucalda da bilər, alçalda da bilər.

Nizami zamanın çox qüdrətli olduğunu vurğulayırdı. Ona görə zaman hər şeyi dəyişdirir, insanın yaxşı və pis əməllərini üzə çıxarır. Şair bildirirdi ki, ömür qısadır və insan hər anını faydalı işlərə sərf etməlidir.

İnsan dünyaya göz açdığı andan zamanla birlikdə yaşayır. Zamanın qiymətini bilməliyik, onu boş, mənasız yaşamamalıyıq, bir sözlə, zaman bizim sərvətimizdir, onun hər bir dəqiqəsini hesablamalıyıq. Dünya fanidir, heç nə əbədi deyil. Günün sonunda oturub fikirləşməliyik ki, biz bu gün nə iş gördük, kimə yaxşılıq etdik, kimə nəsə öyrədə bildik və yaxud günümüzü boşa verdik. Bəzən insan çətin günlər yaşayır və zaman keçdikcə baxırsan ki, o çətinlik səni necə güclü, səbirli, iradəli edib.

Əslində zaman və vicdan bir-biri ilə əlaqəli və bir-birinə çox yaxındır. Vicdanına uyğun zamanını yaşayırsan. Zaman dayanmasa da, ömür keçsə də, insan öz xeyirxah əməlləri və gözəl davranışları ilə yaddaşlarda uzun illər yaşaya bilər. Nizami deyirdi:

*Yaxşı işdə görsən, pis iş də, inan,*
*Unutmaz onları bu qoca dövran* [3, s. 177].

"Sirlər Xəzinəsi"ndə şair tez-tez dünyanın faniliyindən danışır. O göstərirdi ki, dünya müvəqqətidir, insanı yaşadan əsas şey isə onun mənəviyyatı və xeyirxah əməlləridir. Onun düşüncəsinə görə,*"Zaman keçir, insanın sözü və əməli qalır".*

Bu fikir Nizaminin zaman haqqında baxışını aydın ifadə edir. Şair hesab edirdi ki, insan ömrünü yalnız özü üçün deyil, cəmiyyət və gələcək nəsillər üçün də dəyərli etməlidir.

Nizami Gəncəvinin yaradıcılığının şah əsərlərindən olan "Sirlər xəzinəsi" bəşəriyyətin mənəvi-əxlaqi problemlərini didaktik-fəlsəfi müstəvidə işıqlandıran bir qaynaqdır. Poemada yer alan və mütəfəkkirin humanist dünyagörüşünü ən bariz şəkildə əks etdirən hissələrdən biri də "İsa peyğəmbərin hekayəti"dir. İlk baxışdan sadə bir heyvan cəsədi və ona verilən reaksiya üzərində qurulan bu kiçik mənzum hekayə, əslində zaman və vicdan anlayışlarının kəsişməsində insan ruhunun keçməli olduğu təkamül yolunu göstərir.

Hekayənin süjetində Həzrət İsa və tərəfdarları (həvarilər) yolla gedərkən küçəyə atılmış, iylənmiş bir it cəsədi ilə qarşılaşırlar. Həvarilər dərhal fiziki reallığa-yəni xəstəlik yayan, iy

verən və baxılması xoş olmayan cəsədə rəy bildirərək bu görüntü haqqında *"Qəlbə baladır, kor edər gözləri"* [2, s. 111]-deyirlər. Nizami burada zaman anlayışını iki fərqli müstəvidə təqdim edir: maddi zaman və mənəvi zaman. İt cəsədi maddi zamanın hökmünə tabedir. Zaman keçdikcə hər bir maddi varlıq çürüyür, formasını itirir və üfunət mənbəyinə çevrilir. Həvarilər zamanın bu zahiri, dağıdıcı tərəfini görürlər. Onlar üçün hadisə "indi və burda" baş verən xoşagəlməz bir vəziyyətdir. İsa peyğəmbər isə zamanın bu ötəri qanunauyğunluğunu qəbul etməklə yanaşı, onun fövqünə qalxmağı bacarır. O, maddiyyatın fani zamanına deyil, ruhun və gözəlliyin əbədi zamanına nəzər salır. Peyğəmbərin *"Onun dişlərinə baxın, sədəfdən də bəyazdır"* [2, s. 111] - cavabı, zamanın çürüdə bilmədiyi təmizliyi və gözəlliyi kəşf etmək bacarığıdır.

Nizaminin qəhrəmanları arasında ən çox hörmət qazananlar məhz yüksək mənəvi keyfiyyətlərə malik olan insanlardır. O, insanın daxilindəki yaxşılıq hissinin qorunmasını vacib sayır və bildirir ki, mərhəmət, sədaqət və dürüstlük insanı ucaldan əsas xüsusiyyətlərdir.

Nizami insanı daim axtaran, öyrənən və inkişaf edən bir varlıq kimi təsvir edir. Onun əsərlərində elmə və biliyə verilən yüksək dəyər də məhz insanın kamilləşməsinə xidmət edir. Şair hesab edir ki, ağıl və biliklə silahlanan insan həyatın çətinliklərini daha düzgün dərk edir və doğru yolu seçə bilir.

Bu baxımdan Nizami Gəncəvinin insan haqqında fikirləri bu gün də öz aktuallığını qoruyur və insanları mənəvi saflığa, xeyirxahlığa və kamilliyə səsləyir

*"Yerləri, göyləri öyrənək bir-bir,*
*Qalmasın bizimçin açılmamış sirr."*

Bu beyt Nizaminin insanı düşünən, öyrənən və həqiqəti axtaran bir varlıq kimi gördüyünü göstərir. Şairə görə, insanın böyüklüyü onun elmə və biliyə can atmasındadır.

*"Dünən keçdi, sabah hələ gəlməmiş,*
*Bu günün qədrini bil, fürsət əldən getməmiş."*

Nizami Gəncəvi zamanı insan həyatının ən qiymətli nemətlərindən biri hesab edir. Şairin fikirincə, zaman dayanmadan irəliləyir və itirilmiş anları geri qaytarmaq mümkün deyil. Buna görə də insan ömrünün hər anını faydalı işlərə, elm öyrənməyə və xeyirxah əməllərə sərf etməlidir. Nizami göstərir ki, zaman hökümdarları da, sadə insanları da eyni şəkildə sınağa çəkir. Bu dünyada hər şeyi dəyişir, lakin insanın yaxşı əməlləri və gözəl adı zamanın fövqündə yaşayır. Nizami oxucunu zamanın qədrini bilməyə, hər günü mənalı yaşamağa çağırır. Onun fikrincə, boş yerə keçirilən vaxt insanın ən böyük itkisi, faydalı işlərə sərf edilən vaxt isə ən böyük qazancıdır.

Nizami Gəncəvinin yaradıcılığında insan, vicdan və zaman anlayışları bir-biri ilə sıx bağlıdır. Şair insanı kainatın ən qiymətli varlığı hesab edir, onun mənəvi kamilliyini isə vicdanla əlaqələndirir. Nizaminin fikrincə, vicdan insanın daxili hakimidir, yaxşı ilə pisi ayırmağa kömək edir və onu ədalət yoluna yönəldir. Zaman isə insanın əməllərini sınaqdan keçirən, hər şeyi öz hökmü ilə dəyərləndirən qüvvədir.

*Xoşbəxtlik istəsən, səbəbi gözlə,*
*Allahın xalqı ilə ədəblə davran,*
*Əfsanələr fikirləşdiyin yerdə,*
*Allah qorxusunu unutma* [1, s. 278].

Nizaminin belə əxlaqi görüşləri içərisində "Az danışmağın gözəlliyi", dostluq, səmimi yoldaşlıq, dünya varına aldanmamaq, şöhrətə aludəçilik göstərməmək, insanlıq ləyaqətini

alçaltmamaq, zülmə qatlaşmamaq və başqa həyati baxışları bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

*İnsan oğlu qazanar zindanda da şan-şərəf,*
*Gətirildi Yusifə qaranlıq zindan şərəf.*
*Köləlik zəncirini zillətsiz atmaq olaz,*
*İztirabsız, əzabsız şərəfə çatmaq olmaz* [2, s. 98].

Nizami burada Yusif peyğəmbərin həyatına işarə edir. Yusif günahsız olduğu halda zindana salınmışdır. Lakin o, çətinliklər qarşısında ləyaqətini, səbrini və vicdanını qorudu. Nəticədə zindan onun alçalmasna yox, yüksəlməsinə səbəb oldu.

Şair demək istəyir ki: Həqiqi şərəf və uğur asan əldə olunmur. İnsan çətinliklər, əzablar və sınaqlardan keçərək kamilləşir. Vicdanlı və dürüst insan müvəqqəti çətinliklərdən qorxmamalıdır. Əzab və zəhmət olmadan böyük nailiyyətlərə çatmaq mümkün deyil.

Nizami Gəncəvi insanın mənəvi yüksəlişinin çətinliklərdən keçdiyini göstərir. Şair Yusif peyğəmbərin zindan həyatını nümunə gətirərək bildirir ki, insanın şərəfi və ləyaqəti rahatlıq içində deyil, sınaqlar zamanı üzə çıxır. Nizaminin fikrincə, vicdanını qoruyan və çətinliklərə dözən insan sonda mənəvi qələbə qazanır. Bu baxımdan əzab və zəhmət insanın kamilləşməsinə xidmət edən mühüm amillərdir.

*Yaxşılar ilə kim olar dost, yar,*
*Bir gün olar ki, ona lazım olar.*
*Yaxşıların yox sorağı dünyada,*
*Bal pətəyində arı salmış yuva* [4, s. 63].

Nizami burda insan yaxşı, mərifətli və dürüst adamlarla dostluq etməlidir. Çünki belə insanların dostluğu gec-tez insana fayda gətirər. Həyatda elə məqamlar olur ki, insanın ağıllı məsləhətə, mənəvi dəstəyə və ya köməyə ehtiyacı yaranır. O zaman yaxşı dostun dəyəri daha aydın görünür.

Bütün deyilənləri nəzərə alaraq qeyd etmək lazımdır ki, Nizami Gəncəvinin yaradıcılığı, xüsusilə də "Sirlər xəzinəsi" poeması insanın mənəvi kamilliyə aparan yolunu göstərən zəngin bir hikmət xəzinəsidir. Şair əsərində insan, vicdan və zaman anlayışlarını bir-biri ilə sıx bağlı şəkildə təqdim edərək göstərir ki, insanın həqiqi dəyəri onun mənəviyyatında, əxlaqında, elmə münasibətində və cəmiyyətə verdiyi faydada təzahür edir. Nizaminin fikrincə, insanı digər varlıqlardan fərqləndirən əsas xüsusiyyət onun düşünmək, seçim etmək və əməllərinə görə məsuliyyət daşımaq qabiliyyətidir.

Araşdırma nəticəsində aydın olur ki, Nizami vicdanı insanın daxili hakimi kimi dəyərləndirir. Vicdan insanı xeyirxahlığa, ədalətə və mərhəmətə yönəldən mənəvi qüvvədir. Şairin əsərlərində vicdanın səsinə qulaq asan insanın həm özünə, həm də cəmiyyətə fayda verdiyi, vicdanını itirən insanın isə mənəvi dəyərlərdən uzaqlaşdığı göstərilir. "İsa peyğəmbərin hekayəti" nümunəsində də Nizami zahiri görünüşdən kənara çıxaraq hadisələrə mənəvi gözlə baxmağın vacibliyini vurğulayır və insanın daxili saflığının hər cür zahiri qüsurdan üstün olduğunu nümayiş etdirir.

Təhlilə cəlb olunan digər mühüm anlayış zaman məfhumudur. Nizami zamanı insan həyatının ən qiymətli sərvəti hesab edir və ömrün hər anının mənalı yaşanmasını tövsiyə edir. Şairə görə, dünya fanidir, maddi nemətlər keçicidir, lakin insanın yaxşı əməlləri, gözəl adı və mənəvi irsi zamanın sınağından çıxaraq yaşayır. Bu baxımdan zaman yalnız ötüb keçən bir anlayış deyil, həm də insanın əməllərini qiymətləndirən və onun mənəvi dəyərini üzə çıxaran mühüm meyardır.

Nizaminin əsərlərində elm, bilik, dostluq, mərhəmət, səbir, dürüstlük və xeyirxahlıq kimi dəyərlər insanın kamilləşməsinin əsas şərtləri kimi təqdim edilir. Şair göstərir ki, insan

çətinliklər və sınaqlar qarşısında vicdanını və ləyaqətini qoruduğu təqdirdə mənəvi yüksəlişə nail ola bilər. Yusif peyğəmbərlə bağlı nümunələr, dostluq və insanlıq haqqında söylənilən fikirlər bu ideyaların bədii ifadəsi kimi çıxış edir.

Beləliklə, Nizami Gəncəvinin insan, vicdan və zaman haqqında düşüncələri yalnız öz dövrü üçün deyil, müasir dövr üçün də böyük əhəmiyyət daşıyır. Onun irəli sürdüyü mənəvi-əxlaqi prinsiplər bu gün də insanları xeyirxahlığa, ədalətə, elmə və mənəvi saflığa çağırır. Məhz buna görə də Nizami Gəncəvinin irsi ümumbəşəri dəyər kimi öz aktuallığını qoruyur və gələcək nəsillərin mənəvi tərbiyəsində mühüm rol oynamağa davam edir.

ƏDƏBIYYAT


1. Həbibbəyli İ. Nizami Gəncəvi. Həyatı və yaradıcılığı, Bakı, 2021.
2. Nizami Gəncəvi “Sirlər Xəzinəsi” poeması, “Yazıçı” nəşriyyatı, Bakı, 1981.
3. Nizami. Hikmət və nəsihətlər aforizmi, Bakı, 1982.
4. Yusifli X. Nizami Gəncəvi “Sirlər Xəzinəsi”, Gəncə, 2011.


***Жасмин АББАСОВА***
***Нурия АЛИЕВА***

**ЧЕЛОВЕК, СОВЕСТЬ И ВРЕМЯ ГЛАЗАМИ НИЗАМИ ГЯНДЖЕВИ**
***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами Гянджеви, «Сокровищница тайн», человек, совесть, время, нравственность, гуманизм, духовное совершенство

В статье исследуются представления великого азербайджанского поэта и мыслителя Низами Гянджеви о человеке, совести и времени на основе поэмы «Сокровищница тайн» («Махзан ал-Асрар»). Анализ показывает, что в творчестве Низами человек рассматривается как высшая духовная ценность, обладающая разумом, нравственной ответственностью и способностью к самосовершенствованию. Особое внимание уделяется понятию совести, которая представлена как внутренний судья человека, направляющий его к справедливости, добру и милосердию. На примере рассказа об Иисусе и мёртвой собаке раскрывается гуманистическая сущность мировоззрения поэта, призывающего видеть внутреннюю красоту и нравственную чистоту за пределами внешних недостатков. В статье также рассматривается философия времени в творчестве Низами. Поэт подчёркивает быстротечность жизни и необходимость разумного использования каждого мгновения. Согласно его взглядам, материальные блага преходящи, тогда как добрые дела, знания и высокая нравственность сохраняют свою ценность во времени. Делается вывод, что идеи Низами о человеке, совести и времени сохраняют актуальность и в современную эпоху, выступая важным источником духовно-нравственного воспитания общества.

***Jasmin ABBASOVA***
***Nuriyya ALIYEVA***

**THE CONCEPTS OF HUMAN BEING, CONSCIENCE, AND TIME IN THE WORKS OF NIZAMI GANJAVI**
***SUMMARY***

*Keywords:* Nizami Ganjavi, The Treasury of Mysteries, human being, conscience, time, morality, humanism, spiritual perfection

This article examines the concepts of human being, conscience, and time in the works of the great Azerbaijani poet and thinker Nizami Ganjavi, with particular reference to his didactic-philosophical poem “The Treasury of Mysteries” (Makhzan al-Asrar). The study demonstrates that Nizami regards the human being as the highest spiritual value, distinguished by reason, moral responsibility, and the capacity for self-improvement. Special attention is paid to the concept of conscience, which is portrayed as an inner moral judge guiding individuals toward justice, kindness, and compassion. Through the analysis of the story of Jesus and the dead dog, the article reveals the humanistic essence of Nizami’s worldview, emphasizing the importance of perceiving inner beauty and moral purity beyond external appearances. The paper also explores Nizami’s understanding of time as a powerful force that shapes human life and evaluates human actions. According to the poet, worldly possessions are temporary, whereas good deeds, knowledge, and moral values endure through time. The study concludes that Nizami Ganjavi’s ideas on humanity, conscience, and time remain highly relevant today and continue to serve as an important source of moral and spiritual guidance in contemporary society.

***Daxil oldu: 05.06.2026-cı il***